# Prezident İlham Əliyev Əli bəy Hüseynzadənin qızı Feyzavər xanımın vəfatını dərin kədər hissi ilə qarşılayıb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Əli bəy Hüseynzadənin qızı Feyzavər xanımın vəfatını dərin kədər hissi ilə qarşıladığını bildirib.

Prezident İlham Əliyev bu ağır itkidən kədərini bu sözlərlə ifadə edib:

"Azərbaycan ədəbi-ictimai fikrinin görkəmli nümayəndəsi, tanınmış maarifçi və yazıçı-publisist Əli bəy Hüseynzadənin qızı Feyzavər Turan Alpsarın vəfat etməsi xəbərini dərin kədər hissi ilə qarşıladım.

Feyzavər Turan Alpsar böyük mütəfəkkirin ədəbi-elmi irsinin qorunub saxlanmasında mühüm rol oynamışdır. O, Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında mədəni əlaqələrin möhkəmləndirilməsində xidmətlərinə görə "Dostluq" ordeni, "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalı ilə təltif edilmişdir.

Allah rəhmət eləsin!

Azərbaycan Cümhuriyyətinin qurucusu Məhəmməd Əmin Rəsulzadənin bizə məlum olan ilk fotoşəkli 19-20 yaş dönəminə aiddir. "Hümmət" təşkilatının üzvləri ilə birgə çəkdirdiyi bu şəkildə o, gur saçlı, aydın üzlü, səliqəli geyimdədir. "Nicat" cəmiyyətində çəkilən toplu bir fotoşəkildə isə, ön sırada yerdə əyləşib, qısa saqqal saxladığı da gözə çarpır. Müsavat firqəsi və ardınca Cümhuriyyət dönəmi fotoşəkillərində artıq yetkinləşmiş bir şəxsiyyət olduğunu görürük.

Azərbaycan Cümhuriyyəti dövrünə aid fotoşəkillərdə Rəsulzadə xeyli məğrur dayanıb, özündən əmin şəkildə təsvir edilib. Çünki 19 yaşından siyasətlə məşğul olub, 34 yaşında dövlət qurub, parlamentdə ən çox kürsü sahibi olan firqəyə başçılıq edib. Bütün bu uğurlar onun üz cizgilərində də öz əksini tapıb.

Mühacirət dövrü fotoşəkillərində isə onun üzündə mütəmadi kədərə, ata yurduna həsrət izlərinə rast gəlinir. Hətta 28 May tədbirlərində çəkilən şəkillərdə də qayğılı olduğu gözlərindən oxunur.

***

Şəxsi arxivimiz M.Ə.Rəsulzadəyə aid 7 orijinal fotoşəkillə zinətlənib. 1918-ci ilin iyun ayının sonunda İstanbulda çəkilmiş böyük ölçülü fotoşəkildə o, Azərbaycan nümayəndə heyətinin sədri kimliyindədir. Şəkildə yanında Osmanlı nümayəndələri ilə yanaşı digər Cümhuriyyət xadimləri - Xəlil bəy Xasməmmədov, Aslan bəy Səfikürdski, Əhmədcövdət Pepinov, Əkbər ağa Şeyxülislamov, Əbdülhəmid Qaytabaşı da var.